Kaspi 2019.- 23-25 noyabr.- S.23.



Qələndər Xaçınçaylı

## ARTIQ

Od səpibdi odum üstə,
Qalmayıbdı dözüm artıq.
Yaman boğur qəhər məni,
Gülə bilmir üzüm artıq.

Başım üstün alıb duman,
Əriyirəm zaman-zaman.
Sabaha da yoxdur güman,
Bükülübdü dizim artıq.

Ömür haqdır, yoxdur şübhəm,
Qarşısında mən diz çökəm.
Günahım çox ana vətən,
Keçmir daha sözüm artıq.

O baharım, o çağım yox,
İsti, qaynar qucağım yox,
Od alası ocağım yox,
Mənim sönüb közüm artıq.

Dünyamız beş günlük olub,
Açmamış arzular solub.
Qələndər de, kimlər qalıb?
Mən mehmanam özüm artıq.

## ALLAHA MÜRACİƏT

Mənə toxunmayın, dərdim dil açar,
Şəhid sinəsində "qızılgül" açar.
Anamın gözünün yaşı qanıyır,
Torpağı qanıyır, daşı qanıyır.
Dərdimi içimdə mən necə sıxım,
Günəşəmi çıxım, Ayamı çıxım?
Bu qədər insanmı vətənsiz olar,
Bu qədər vətənmi insansız olar?
Düşmən də bu qədər amansız olar,
Allahı unudub, o qansız olar?
Körpələr doğulmur yurdunda, Allah,
Edilən dəhşətə, günahlara bax?
Hanı mərhəmətin, o ədalətin,
Niyə eşidilmir yerdə haqq səsin?
Mən sənə baş əyim, necə inanım,
Bəlkə ikinci bir Allah axtarım?!...
Qocaman aqillərə bənzəyir ağaclar
Qocaman aqillərə bənzəyir ağaclar,
Dilli yoxdur ki, danışmağa.
Yol göstərsin insanlara,
hər kəs yerini bilsin.
Aldanmasın onlar şərə,
Şeytana baş qoşmasın,
həqiqəti desin.
Keçsin bu dünyanın sınaqlarından,
haqqın özünə qayıtsın.
Bir Tanrı sevgisiylə
Baxsın ədalətin gözünə,
Odla oynamasın
bu dünyanın özüylə.
Bərabər, azad yaşasın
qocaman aqil
ağaclar kimi...

## VƏTƏN

Nə qədər ağı deyim sənə,
Nə qədər fəryad qoparım,
ağlayım səni, Vətən.
Məgər dərdin birdir, ikidir,
mən onu çəkəm.
Bu qədər dərdi hara yığım,
harama yükləyim,
gedim, Vətən?
Axı, sənə ana dedim,
Sən də mənə oğul dedin...
İndi mənə yol göstər,
nə edim, Vətən!

## DAĞLAR

Dərd gətirdin dərdim üstə,
Gecə-gündüz yandım, dağlar.
Başın üstə çəni gördüm,
Ah çəkdim, utandım, dağlar.

Gözü yaşlı Murova bax,
Başındakı qırova bax.
Necə dözüm Allah, Allah,
Keçən günü andım, dağlar.

Yaxşı-yaxşı üzümə bax,
Odu sönmüş gözümə bax,
Məndə olan dözümə bax,
Boş vədə allandım, dağlar.

Qoynunda bir uşaq idim,
Yaman dəcəl, qoçaq idim.
Dəli Domrul, Qazan idim,
Sən demə yalandım, dağlar.

Düşmən gəzir başın üstə,
Başın qoyur daşın üstə.
Deyən yoxdur qaşım üstə,
Beləcə dağlandım, dağlar.

Doğma yurda gedəmmirəm,
Şəmşirimi görəmmirəm,
Sücayəttək öləmmirəm,
Səhraya bağlandım, dağlar.

Qeyrətindən sən ver mənə,
Qılıncını alım ələ,
Hücum çəkim doğma elə,
Qisasımı alım, dağlar.

## MƏNİM GÖZƏLİM

Mənim gözəlim,
bir rəssam kimi
fırçanı tutsa da barmaqların,
ancaq şəkilimi çəkir gözlərin...
Eləcə də gözlərinlə baxıb,
sığmadığımız bu dünyanı çəkirsən.
ö cür, meşələri, çayları,
bulaqları, dağları,
əlvan çiçəkləri,
gülləri çəkirsən.
Çəməndə uzanmış
gözəlləri çəkirsən.
Dağlarla yorğun-yorğun
aşan cığırları çəkirsən.
Topaağ buludların arasından
baxan Günəşi,
Təbiətə can verən
isti nəfəsi çəkirsən.
Sonra günəş şuası kimi qəlbimə axıb
nəğməyə, mahnıya dönürsən.
Mənim gözəlim,
gül camalından zövq alıb
ilhamlanan duyğularım
axır şəlalə kimi...
Yanaqların eşiqindən
od alıb,
yanır lalə kimi.
Sən mənim dan ulduzumsan,
Bu sevgi ateşindən yanırsan
axşamdan sabaha kimi.
Sən mənim baharımsan, yazımsan,
Açırsan təravətinlə qəlbimi,
Mənə müjdə verirsən...
Sən mənim xoş avazımsan,
ovsunlayıb qəlbimi
hara gedirsən?
Sən mənim dənizimsən,
dalğalar qoynunda ruhum dolaşır.
Sən mənim su pərimsən,
Sevgimiz əfsanəyə
dönüb nağıllaşır.
Sən mənim həzin laylamsan,
Bulaqların, çayların səsində
ruhuma hopursan.
Sən mənim həyat aynamsan.
Görünən aynamdan
baxırsan dünyama...

23 noyabr 2019
WWW.KASPI.AZ